https://doi.org/10.30546/114578.2026.3010.1114

# I TÜRKOLOJİ QURULTAYIN YEGANƏ QADIN NÜMAYƏNDƏSİ – AYNA SULTANOVA

**Yeganə İsgəndərova**
*baş müəllim*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*https://ORCID.org/0000-0002-8467-1543*
*i.yegana90@hotmail.com*

**Xülasə**

1926-ci il fevralın 26-da Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti və Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin Bakıda çağırılan I Türkoloji Qurultayında müxtəlif türk dövlətləri (Qırğızıstan, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Krım, Tatarıstan, Başqırdıstan, Çuvaşıstan, Yakutiya, Abxaziya, Xakasiya) ilə yanaşı, Gürcüstan, Ermənistan, Almaniya, Macarıstan və digər regionlardan da nümayəndələr iştirak etmişdir. Qurultayın 131 nəfərdən ibarət heyəti içərisində Azərbaycanı 22 nəfər təmsil etmişdir ki, bunlardan Ayna Sultanova qurultayın yeganə qadın üzvü olmuşdur.

"Lenin partiyasının sədaqətli qızı" (H.Sultanova) Ayna Sultanova taleyini Kommunist partiyasına, sovetlərə bağlayan ilk azərbaycanlı qadın kimi cəhalət və avamlığa qarşı mübarizə aparmış, qadın azadlığını təbliğ etmişdir. Onun əqidə bütövlüyü və yorulmaz fəaliyyəti xalqının səadətinə həsr olunsa da, üzvü olduğu kommunist ideologiyasının qurbanı olmuş, repressiya dalğasına məruz almışdır.

**Açar sözlər:** türkoloji qurultay, dil, əlifba, terminologiya, nümayəndə, türkdili xalqlar, Ayna Sultanova.

# THE ONLY FEMALE REPRESENTATIVE OF THE FIRST TURKOLOGICAL CONGRESS – AYNA SULTANOVA

**Yegana Iskandarova**
*Azerbaijan State Pedagogical University*

**Abstract**

On February 26 1926, the First Turkological Congress was convened in Baku by the Azerbaijan Society for the Study and Research of Azerbaijan and the All-Union Society of Orientalists. Alongside representatives from various Turkic states and regions − such as Kyrgyzstan, Kazakhstan, Uzbekistan,

Turkmenistan, Crimea, Tatarstan, Bashkortostan, Chuvashia, Yakutia, Abkhazia, and Khakassia − delegates from Georgia, Armenia, Germany, Hungary, and other regions also took part in the Congress. Of the total 131 participants, 22 represented Azerbaijan, among whom Ayna Sultanova was the only female delegate.

Described as a “faithful daughter of Lenin’s party” (H.Sultanova), Ayna Sultanova was one of the first Azerbaijani women to dedicate her life to the Communist Party and the Soviet system. She actively fought against ignorance and illiteracy and promoted women’s emancipation. Although her ideological commitment and tireless activity were devoted to the well-being of her people, she ultimately became a victim of the communist ideology she served and was subjected to political repression.

**Key words:** Turkological Congress, language, alphabet, terminology, representative, turkic-speaking peoples, Ayna Sultanova.

## ЕДИНСТВЕННАЯ ЖЕНЩИНА-ПРЕДСТАВИТЕЛЬНИЦА I КОНГРЕССА ПО ТЮРКОЛОГИИ – АЙНА СУЛТАНОВА

**Егяна Искендерова**
*Азербайджанский государственный педагогический университет*

**Резюме**

26 февраля 1926 года в Баку состоялся Первый тюркологический конгресс азербайджанского научно-издательского общества и Всесоюзного общества востоковедов, в котором приняли участие представители различных тюркских государств (Кыргызстан, Казахстан, Узбекистан, Туркменистан, Крым, Татарстан, Башкирия, Чувашия, Якутия, Абхазия, Хакасия), а также Грузии, Армении, Германии, Венгрии и других регионов. Из 131 делегации конгресса Азербайджан представляли 22 человека, из которых Айна Султанова была единственной женщиной-участницей конгресса.

Айна Султанова, «верная дочь ленинской партии» (Г.Султанова), как первая азербайджанская женщина, связавшая свою судьбу с коммунистической партией и советами, боролась против невежества и вульгарности и способствовала освобождению женщин. Несмотря на то, что она была честным человеком и неустанно трудилась на благо своего народа,  стала жертвой коммунистической идеологии, членом которой являлась, и подверглась волне репрессий.

**Ключевые слова:** тюркологический конгресс, язык, алфавит, терминология, представитель, тюркоязычные народы, Айна Султанова.

**Giriş/Introduction**

Bakıda I Türkoloji qurultayın keçirilməsi sovet hakimiyyətinin ən təlatümlü dövrünə təsadüf edir. Dünya proletariatının "rəhbəri" V.İ.Leninin Azərbaycanı diqqət mərkızində saxlamasını ziyalılar, siyasətçlər qayğı kimi qiymətləndirirdilər. Əslində isə xalqın cəza aparatının başında sapı özümüzdən olan, özləri də bilmədən bolşevizm məkrinin qurbanı olan kommunist-bolşeviklər dururdu. Belə bir dövrdə qurultaya nümayəndələrin seçilməsi, təşkili və keçirilməsi ilə bağlı tarixi detallar Azərbaycan Kommunist Partiyası ilə razılaşdırılır, ziyalı möveyi partiyanın iradəsinə tabe edilirdi. Qurultayın ən kiçik detalı barədə belə partiya təşkilatına məlumat verilir, müzakirə edildikdən sonra icazə verilib verilmədiyi bildirilirdi [Babayev, 2016:177].

Qurultayın yeganə qadın iştirakçısı Ayna Sultanovanın nümayəndə seçilməsi qərarı da Mərkəzi Komitə tərəfindən verilmişdi.

**Ayna Sultanova kimdir?** Ayna Sultanova dövrünün digər qabaqcıl fikirli, əqidəli insanları kimi kommunist ideyalarının fəal təbliğatçılarından olan Azərbaycan qadını idi. Azərbaycan Sovet ensiklopediyasında deyilir: "*Sovet dövlət və ictimai xadimi, ilk inqilabçı azərbaycanlı qadınlardan biri. Q.M.Musabəyovun bacısı, H.H.Sultanovun həyat yoldaşı. 1918-ci ilin iyunundan Sov.İKP üzvü. 1912-ci ildə Bakıda "Müqəddəs Nina" gimnaziyasını bitirmiş və həmin məktəbdə dərs demişdir. 1917-18-ci illərdən inqilabi hərəkata qoşulmuşdur. Bakı kommunasının (1918) süqutundan sonra Həştərxana getmiş, RK(b)P Həştərxan quberniya komitəsi müsəlman bölməsi Rəyasət Heyətinin üzvü və Zaqafqaziya müsəlmanlarının işləri üzrə komissarlıqda maarif şöbəsinin müdiri olmuşdur. 1919-cu ilin avqustunda partiya Sultanovanı Moskvaya, Kommunist Universitetində oxumağa göndərmiş, eyni zamanda o, RSFSR Xalq Xarici İşlər Komissarlığında Yaxın Şərq şöbəsinin katibi işləmişdir*" [ASE, 1986:72].

Dəvəçidə (bəzi mənbələrdə Quba qəzasının Pirəbədil kəndində) dünyaya gələn Ayna Sultanova Azərbaycanın görkəmli inqilabçısı Qəzənfər Musabəyovun yetişdiyi bir ailədə dünyaya gəlmiş, uşaqlığında çox az sayda qızlara nəsib olan təhsil almaq onun da nəsibinə düşmüşdü. Bakıda qzılar pansionunu

bitirən gənc Ayna “Nina” qızlar məktəbini bitirib müəllimliyə başlayır, azərbaycanlı balalara ana dili, rus dili və riyaziyyatdan dərs verir. Dövrün siyasi mətbuatı ilə yaxından tanış olur, insanların ağır həyatı onu çox düşündürür.

Gənclik illərində qardaşına qoşularaq inqilabi hərəkatın fəal iştirakçısına çevrilən Ayna tezliklə ictimai işlərə cəlb olunur. 1920-ci ilin baharı Azərbaycana “azadlıq, xoşbəxtlik” gətirəndə Aynanın da ömrünə bahar gəlir; Azərbaycan qadınının silkinib çadradan çıxması, azad həyatın qoynuna atılması, istibdada, zülmə etirazı Ayna Sultanovanın nəinki ictimai həyatında, mətbuatda müntəzəm olaraq çıxış etdiyi məqalələrində də əksini tapırdı. 1922-ci ildə Bakıda Zaqafqaziya qadınlarının I qurultayı keçiriləndə Ayna Sultanova qurultayın təşkilatçılarından biri, “məzlum Şərq qadınının tarixində əsl mədəni inqilab” sayılan “Şərq qadını” jurnalı nəşr olunanda jurnalın redaksiya heyətinin üzvlərindən biri olur. Azərbaycan qadınının hər bir uğuru onu sevindirir, bu sevincini mətbuatda bölüşürdü. 1927-ci ildə Bakıda fəhlə-kəndli qadınlarının qurultayında seçilmiş nümayəndələr Ayna Sultanovanın rəhbərliyi ilə Moskvaya gedib ümumittifaq qurultayında iştirak edir. Qurultayda Ayna Sultanova rəyasət heyətinə üzv seçilir.

“*Ayna Sultanova möhkəm ailə, sağlam nəsil tərəfdari olduğu kimi, Azərbaycan qadınının məişətinin günü-gündən yaxşılaşmasına çalışan xeyirxah bir insan idi. O dərindən dərk edirdi ki, qadın azadlığı onun istehsalatda, cəmiyyətdə tutduğu mövqe ilə üzvi surətdə bağlıdır”* [Sultanova, 1965:64]. Gərgin və məhsuldar ictimai fəaliyyətinin nəticəsi olaraq, o, 1929-cu ildə Azərbaycan SSR Maarif komissarı əvəzi təyin olunur. “*Azərbaycan maarifinin yenidən qurulması, yeni tədris kitablarının hazırlanıb nəşr edilməsi və xüsusilə Azərbaycan qəzalarının müəllim kadrları ilə təmin olunmaıs üçün gecə-gündüz çalışır, müəllimlər və maarif işçilərilə tez-tez görüşür, onlara bacardığı qədər yardım göstərirdi”* [Sultanova, 1965:72]. İşgüzarlığı, prinsipiallığı və əqidə bütövlüyü sayəsində Ayna Sultanova daha məsul vəzifələrə − Azərbaycan Ali Məhkəməsinin sədri və Xalq Ədliyyə Komissarı vəzifələrinə təyin olunur və bu vəzifələrdə də etimadı doğruldur, ciddiliyi, tələbkarlığı ilə əqidəsinə və tutduğu yola xəyanət etmir.

**Ayna Sultanova niyə repressiya qurbanı oldu**. “İnqilabçı” qadının həyat yolunu qısa xarakterizə edən bu məlumat onun ilk təsəvvürdə sosializm ideyalarına sadiq leninçi, Mərkəzi Komitə aparatının fəal üzvü olduğu təsəvvürünü formalaşdırır. Lakin A.Babayevin qələmə aldıqları oxucunun Ayna Sultanova haqqında sovet ensikplopediyasının – bu “mötəbər” mənbənin dediklərinə sadəcə təəssüf və qəzəb hissi doğurur: “*Ayna haqqında mənim təsəvvürüm belə idi: istedadlı qadın olmuş, görkəmli şəxsiyyətlərdən biri olan*

*Həmid Sultanovu tanıyandan sonra onunla birgə inqilabi hərəkata qoşulmuş, onunla birgə bu hərəkatda özünə layiqli yer tutmuş, bu hərəkatda müxtəlif məsul vəzifələrdə çalımış və ərinə görə o da repressiyanın qurbanı olmuşdur. Sən demə, Ayna haqqında çox şey bilmirmişəm. Ayna Sultanovanın "Cinayət" işi ilə tanış olduqdan sonra Dərnəgüldə büst şəklində daşlaşan Ayna gözümdə 30 metrlik monumental bir Azərbaycan, türk qızının heykəlinə çevrildi"* [Babayev, 2016:213].

Ayna Sultanova ağıllı, əqidəli, sədaqətli, işində məsul bir qız idi, bunu görən dövlət xadimi Həmid Sultanov onunla ailə həyatı qurmuş, özü də bilmədən bu gənc qızı mənfur siyasətin, erməni dığası Mikoyan və onun kimilərinin qurbanı etmişdi. Azərbaycan qadınının adi müəllimlikdən nazir səviyyəsinə yüksələn layiqli təmsilçisi Ayna Sultanova 1918-ci il mart qırğınından sonra yenə də partiya sıralarına daxil olanda, Şaumyanın rəhbərliyi ilə yaradılmış kommuna ilə əməkdaşlıq edəndə də bilmirdi ki, sədaqəti və əqidəsi onu Azərbaycan milli dövlətçiliyinin əleyhinə yönəldir, erməni daşnaklarının və rus bolşeviklərinin rəhbərliyi ilə xalqına qarşı yeridilən düşmən siyasətin fəal iştirakçısı olur. Həyat yoldaşının böhtanın qurbanı olduğunu zənn edən Ayna Sultanova onu qurtarmaq üçün Moskvaya üz tutur və ədalət gözlədiyi halda rəzalətlə üzləşir; onu tutub həbs edir, haqqında cinayət işi açırlar. Bu, 1937-ci ildə, Azərbaycanın üzərində artıq 1921-ci ildən cücərməyə başlayan repressiya dalğasının gətirdiyi qasırğanın qığılcımları idi. Ayna Sultanova əksinilabi təşkilatın üzvü kimi terror qrupuna başçılıq etdiyinə görə ittiham edilir. Azərbaycanlı qızının sədaqəti, müəllim inamı və etiqadı onun adını "xalq düşmənləri" siyahısına yazdırır. İstintaqın və işgəncənin sındıra bilmədiyi mətin qadın yalançı şahidlərlə üzləşir, böhtana məruz qalır, lakin əqidəsindən və qürurundan dönmür. 1938-ci ildə Ayna Sultanova minlərlə azərbaycanlı ziyalısı və dövlət xadimi kimi güllələnir.

**Nəticə/Conclusion**

1926-cı ildə Türkoloji Qurultay işə başlayanda onun təşkilində və fəaliyyətində Ayna Sultanovanın xüsusi xidmətləri olur. O, qurultay katibliyinin 5 nəfər üzvündən biri kimi qurultayın gedişində fəaliyyət göstərir. Bəlkə də tarixin uçurumlu yollarında bu fəaliyyətinin illər sonra onun repressiya qurbanı olmasında rol oynadığını mübariz qadın təsəvvür edə bilməzdi. Əqidəsinə inam, xalqını xoşbəxt, "ağ günə" çıxaracaq kommunist ideologiyasına sədaqəti onu bu

sistemin, repressiya aparatının qurbanı edir. Milli kimliyini, mənəviyyatını itirmək istəməyən, xalq düşməni kimi güllələnən Ayna Sultanova bu gün də *"kiminə görə əqidəsi uğrunda çarpışan qadın, Stalin ideyalarının qurbanı, kiminə görə millətçilərin düşməni, başqalarına görə isə xalqını tərəqqi və inkişafa səsləyən ziyalıdır"* [Nizamiqızı, 2012]. Hər bir halda, o, xalqının gələcəyinin mənfur bolşevizmin əlində olduğuna inanan, onun maaariflənməsi, tərəqqisi və xoşbəxtliyi yolunda mübarizə aparan və bu mübarizənin qurbanı olan türk qadını və dilçilik tarixində rolu olan I Türkoloji Qurultayın yeganə azərbaycanlı qadın nümayəndəsi idi.

## ƏDƏBİYYAT/REFERENCES

1. Azərbaycan Sovet Ensiklopediyası (1986). – Bakı: Azərbaycan Sovet Ensiklopediyasının Baş Redaksiyası. – 624 s.
2. Babayev, A. (2016). Birinci Türkoloji Qurultay və Azərbaycanda türkologiya. – Bakı: "Elm". – 335 s.
3. Cavid (2010). Ayna Sultanova: ziddiyyətli tale // "Xalq cəbhəsi", − 27 noyabr. – s.3. http://www.anl.az/down/meqale/xalqcebhesi/2010/-noyabr/142989.htm
4. Məmmədov, S. (1960). Azərbaycanın maarifpərvər qadınları. – Bakı: Azərnəşr. – 139 s.
5. Nizamiqızı, H. (2012). Puç ideyalar qurbanı və ya ölüm nərdivanlarında. // "Mədəniyyət", − 28 sentyabr. − s.3. http://www.anl.az/down/meqale/medeniyyet-/-2012/sentyabr/265378.htm.
6. Sultanova, H. (1965). Ayna Sultanova. – Bakı: Azərnəşr. – 79 s.
7. Zülfüqarlı, M. (2009). Sovet dövrünün heykəlləri: Ayna Mahmud qızı Sultanova // "525-ci qəzet", − 15 aprel. – s.5. http://anl.az/down/meqale-/525/525_-aprel2009/75153.htm

**Məqalə tarixçəsi**
*Daxil olub* *18.01.2026*
*Qəbul edilib* *29.01.2026*
*Nəşrə tövsiyə edib* *Nazilə Abdullazadə*
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*